çarəsizlik və yalnızlıq hisslərindən qurtulması üçün də öz fərdiyyətini itirmədən digər insanlarla həmrəylik, paylaşma və sevgi əlaqələrilə bütünləşməsi sağlamlıq işarəsi olub, alıcı, istismarçı, ticarətçi, biofil və nekrofil yönəliş formaları xəstəlik əlamətləridir.

Prof.dr. Y.Kılıçcının sözləri ilə desək, "psixoloji sağlamlıq insanın özü və çevrəsi ilə əlaqəli ehtiyaclarını qarşılaya bilməsi üçün onun öz daxili güclərinin çevrə şərtlərini istifadə edə biləcək yetkinliyə çatması prosesi" olaraq ifadə oluna bilər.


Ədəbiyyat:

1. Babayeva Ş., Həsənova M. Sosial psixologiya. Bakı, 2019.


## AZƏRBAYCANDA MƏŞĞULLUQ SƏVİYYƏSİNİN ARTIRILMASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN ROLU


*Hacıyev Azər Vahid oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Texnologiya Universiteti, dissertant*


Əmək bazarı istənilən ölkə iqtisadiyyatında transformasiyaların sabitliyini və effektivliyini mühakimə etmək mümkünlüyü olan göstəricilərdən biridir. Əmək bazarında tələb və təklif bir çox amillərlə qarşılıqlı əlaqədədir ki, onların mənfi təsirini aradan qaldırmaq və ya müsbət təsirini artırmaq üçün vaxtında müəyyən edilməlidir.

İnsan resurslarının idarə edilməsində əmək bazarına kompleks qaydada yanaşmanın çox böyük əhəmiyyəti vardır. Sanki əmək bazarının insan resurslarının idarə edilməsi ilə birbaşa əlaqəsinin hiss edilməsi də insan resurslarının əmək bazarının obyekti və subyekti kimi ona təsiretmə istiqamətində bazar modeli şəraitində mühüm rola malikdir. Həqiqətən də əmək bazarına çıxış orda mövcud olan rəqabətə davamlı olmaq, eyni zamanda əmək bazarının rəqabət mexanizmindən, bazar subyektindən və əmək bazarının təşkilindən bilavasitə asılıdır. Burada əmək bazarının strukturu və fəaliyyət göstərmə forması onun infrastrukturu və funksiyaları işçi qüvvəsinin işə cəlb edilməsində, rəqabət qabiliyyətinin artırılmasında təhsil müəssisələri, kadr hazırlığı ocaqları peşə meyilli və peşə seçmə təşkilatları, əmək birjaları, dövlət və qeyri–dövlət məşğulluq mərkəzləri və s. çox böyük rol oynayırlar. Əmək bazarının infrastrukturu kadrların hərəkəti və bazarın fəaliyyəti ilə məşğul olan bir sıra strukturların məcmu sistemindən ibarətdir. Əmək bazarı infrastrukturunun funksiyaları konkret olaraq bunlardır.

- işə götürənlə işçi qüvvəsi arasındakı qarşılıqlı əlaqənin nizamlanması;
- işə götürənin işçilərə məlumat - informasiya xidmətini göstərməsi;
-əmək bazarı ilə əlaqədar olan informasiyaların toplanması, təhlili və proqnozlaşdırılması;
- əhali məşğulluğunun genişləndirilməsi;
- işsiz əhalinin sosial və maddi təminatının təmin edilməsi;
- yeni iş yerlərinin açılmasına təsir göstərmə;

- peşəyönümlü işlərin aparılması, treninqlərin təşkili, ixtisasın artırılması işlərinin təşkil edilməsi.

"Əmək bazarında ən başlıca məsələ əmək bazarı strukturunun, məşğulluq şəraitinin konyukturasının əmək bazarının seqmentləşdirilməsində, ayrı–ayrı tematik problemlər üzrə informasiya mənbələrinin müəyyən edilməsi, məşğulluq şəraiti strukturunun (iqtisadi blok, sosial blok, peşə-ixtisas bloku, konyuktura şəraiti, aqrar sahələrin cəlbedicilik səviyyəsi, əmək bazarının seqmentləşdirilməsi) sistemli qaydada təhlil edilməsidir.

Başqa bazarlar sistemində əmək bazarı aparıcı mövqeyə malikdir. Əmək bazarı olmadan nə mikro (firmadaxili) və nə də makroiqtisadi problemləri həll etmək olar. Əhalinin zəruri sosial–iqtisadi problemləri olan əmək haqqı, stimullaşdırma, təhsilə qoyulan sərmayə, əməyin digər sosial məsələləri, habelə inflyasiya əhalinin alıcılıq qabiliyyəti, gəlirləri, yığımı və s. kimi mikro problemlər istər – istəməz əmək bazarı baxımından araşdırılır, öyrənilir və həll yolları axtarılır.

İşçi qüvvəsi bazarına əmək bazarının dinamikasını xarakterizə edən demoqrafik amillərlə bərabər əmək qabiliyyətli əhalinin iqtisadi fəallıq dərəcəsi də mühüm təsir göstərir. Bu göstərici cəmi məşğul və işsiz əhalinin əmək qabiliyyətli hissəsinin ümumi sayına olan nisbəti ilə müəyyən edilir.

İşçi qüvvəsinin dinamikasına eyni zamanda miqrasiya prosesləri də güclü təsir edir. Məşğulluğun dinamikasına tələb baxımından təsir edən başlıca amillərə iqtisadi konyukturanın vəziyyəti, iqtisadi proseslər və geniş təkrar istehsalının fazaları aid edilə bilər. Qeyd edilən bu amillərlə yanaşı işçi qüvvəsinə olan tələbata elmi–texniki tərəqqi də təsir edir.

Müasir şəraitdə əmək bazarının dövlət tənzimlənməsi iqtisadi, inzibati, qanunvericilik, təşkilati və s. tədbirlərin kompleks sistemini özndə əks etdirir.

Yeni iqtisadi şəraitdə əmək bazarı ölkənin, regionun, şəhərin rifahını, sabitliyini, transformasiyaların səmərəliliyini və inkişafını qiymətləndirmək mümkün olan göstəricilərdən biridir.

Əmək bazarının xüsusi əhəmiyyəti onun sosial yönümlü olması ilə bağlıdır. Bunu, bir tərəfdən əhalinin rifahının əsasını əmək fəaliyyətindən əldə edilən gəlirlər, digər tərəfdən isə natamam məşğulluq təşkil edir. Bu, bir qayda olaraq, mənfi nəticələrə (sosial gərginliyin artması, rayonun sosial-iqtisadi göstəricilərinin pisləşməsi və s.) gətirib çıxarır.

Beləliklə, hazırda işəgötürənlər tərəfindən artan tələbat, ilk növbədə, əsas və orta ixtisas peşələri üzrə ixtisaslı kadrlardır. Öz növbəsində tədqiqatçılar işçi peşələrinin cəlbediciliyini iqtisadi fəaliyyət növlərinə görə əmək haqqının kəskin diferensiallaşması, aqrar sahədə əmək haqqının minimum səviyyəsi, əmək şəraiti baxımından cəlbedici olmaması, tez-tez əmək haqqının verilməməsi ilə izah edirlər.

Onu da qeyd etmək lazımdır ki, peşə təhsilinin strukturu ali təhsilin xeyrinə dəyişir. Həqiqətən də gənclər əsasən hüquq, maliyyə, iqtisadi və menecment ixtisaslarının daha çox tələb olunduğu ali təhsil müəssisələrinə daxil olurlar, həkimlərə, mühəndislərə və müəllimlərə daha çox tələbat olur. Eyni zamanda, məzunlar imkanlarının daraldığını düşünərək kiçik şəhər və kəndlərdə işləmək istəmirlər ki, bu da bir sıra ixtisaslar üzrə qıtlığın artmasına səbəb olur.

Ölkənin, regionun, müəssisələrin inkişafı ən mühüm iqtisadi ehtiyatlardan (istehsal amillərindən) biri - əmək ehtiyatlarından istifadənin vəziyyəti və səmərəliliyi ilə bilavasitə bağlıdır.

İqtisadiyyatda mövcud vəziyyət ölkənin davamlı inkişafının təmin edilməsində əmək bazarının və məşğulluğun rolunun və yerinin öyrənilməsinə xüsusi əhəmiyyət verir.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafı həm rəqabət mühitinin inkişafına, həm də məşğulluğa müsbət təsir göstərir. Nəticə etibarilə ölkə iqtisadiyyatının inkişafı və vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi icra olunan mexanizmlərdə özünü göstərməkdədir. Bundan başqa, sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında yarana biləcək böhranların nəticəsinin maksimum səviyyədə elastikliyinə və böhran vəziyyətindən çıxışın intensivləşdirilməsinə imkan verir. Tədqiqatın nəticəsi olaraq məlum oldu ki, mövcud böhran şəraitində yeni iş yerlərinin yaradılması mənbələrindən biri kimi sahibkar əməyinin rolunda artım müşahidə olunur. Bu baxımdan, sahibkarlıq əməyinin stimullaşdırılması, o cümlədən, infrastrukturun inkişafı, sahibkarlara məsləhətlər verməklə kiçik biznesin təşviqi, sahibkarlıq inkubatorlarının yaradılması dövlət səviyyəli bir vəzifədir.

Əmək bazarının inkişafı üçün sahibkarlıq müəssisələri ilə dövlət arasında tərəfdaşlıq sahibkarlıq strukturlarına real yardımın göstərilməsini əhatə etməli, sahibkarlıq isə öz növbəsində yeni iş yerlərinin yaradılması hesabına əhalinin məşğulluğunun genişləndirilməsi şərtlərini yerinə yetirməlidir. Belə tərəfdaşlıq vasitəsilə əmək bazarı daha çevik və mobil ola bilər ki, bu da iqtisadi artıma səbəb olacaq.

Məlum oldu ki, innovativ ideyaların və yaradıcı təşəbbüslərin reallaşdırılması, onların praktikada tətbiqi üçün zəmin yaradılması, elm və texnika sahəsində çalışan gənclərin sayının artırılması və əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanması barədə məlumatlandırma sisteminin qurulması, məşğulluq sahəsində milli informasiya sisteminin yaradılmasının sürətləndirilməsi daha vacibdir.

Ədəbiyyat:

1. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.
3. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. Bakı, 2018.
4. Əmək və məşğulluq sahəsində dövlət siyasəti. Təhlil sənədi. Bakı, 2014.
5. Məhərrəmova R., Musayeva S. Sahibkarlıq. Bakı, 2019.
6. İbrahimov E.R., İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi. Bakı, 2010.
7. "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" hansı işləri görəcək? URL: https://sosial.gov.az/media/xeberler/3282